<u>**Səfir Vadanın Ağcabədi və Beyləqan rayonlarına səfəri**</u>

28 sentyabr tarixində Səfir Vada Cüniçi Ağcabədi və Beyləqan rayonlarına rəsmi səfər edərək “Ot Kökləri və İnsan Təhlükəsizliyi” Qrant Yardımı Proqramı çərçivəsində icra olunmuş “ Ağcabədi rayonunun Şərəfxanlı kəndində uşaq bağçasının inşası” və “Beyləqan rayonunun İmamverdili kəndində tibb məntəqəsinin inşası” layihələrinin yerinə baxış keçirmişdir. Ağcabədi rayonunun Şərəfxanlı kənd uşaq bağçasının bu ilin sentyabr ayından, Beyləqan rayonunun İmamverdilər kənd tibb məntəqəsinin isə oktyabr ayından əhalinin istifadəsinə verilməsi planlaşdırılır.











